**UOT 341.23**

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN SƏVİYYƏLƏRİ VƏ ONUN TƏMİN OLUNMASI YOLLARI

**A.A.MƏHƏRRƏMOV[*], N.İ.RƏHİMOV[**]**
***Bakı Dövlət Universiteti[*]***
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu[**]***
***amagerramov@hotmail.com[*]***
***nishat_85@mail.ru[**]***

*Məqalədə beynəlxalq və milli səviyyədə ərzaq təhlükəsizliyi problemi, həmçinin onun həlli yolları və istiqamətləri mövcud beynəlxalq-hüquqi sənədlər və müxtəlif dövlətlərin qanunvericilik praktikası əsasında geniş təhlil edilir. Göstərilir ki, dünya ictimaiyyəti ərzaq təhlükəsizliyinin təmin olunması probleminin həllinə beynəlxalq səviyyədə nail olmağa çalışır. Milli səviyyədə ərzaq təhlükəsizliyinin təmin olunması isə yalnız effektiv dövlətdaxili qanunvericilik bazasının mövcudluğu şəraitində mümkün ola bilər.*

**Açar sözlər:** ərzaq təhlükəsizliyi, beynəlxalq standartlar, dövlətdaxili qanunvericilik, aclıq, ərzaq məhsulları, BMT sistemi, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, ərzaq ehtiyatları, dövlət tənzimlənməsi

Hal-hazırda dünya ölkələrini narahat edən əsas problemlərdən biri həm beynəlxalq, həm də milli səviyyələrdə ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına əsasən, hazırda dünyada 1 milyard nəfərə yaxın insan aclıq içərisində yaşayır (8).

Dünya ərzaq təhlükəsizliyinin obyekti bütün bəşəriyyət hesab olunur və əhalinin hər hansı hissəsinin daimi olaraq aclıq içində yaşaması onu göstərir ki, həqiqətən dünyada xroniki ərzaq təhlükəsizliyi hökm sürür. Buna görə də, dünya birliyi qarşısında onun bütün əhalisini aclıq və yemək azlığından xilas edə biləcək təminat sistemi yaratmaq vəzifəsi dayanır.

Ümumdünya ərzaq təhlükəsizliyi konsepsiyası ilk dəfə olaraq 1973-cü ildə FAO-da irəli sürülmüşdür. Bununla belə, Ümumdünya ərzaq təhlükəsizliyi əsas etibarilə dünyanın bütün ölkələrində qida məhsullarının əldə edilməsi şəraitində ərzaq malları bazarlarında stabilliyin qorunub saxlanması kimi başa düşülür.

1974-cü ildə BMT Baş Məclisi FAO-nun tövsiyələri əsasında işlənib hazırlanan Dünyada ərzaq təhlükəsizliyinin təmin olunması üzrə Beynəlxalq öhdəlikləri dəstəklədi. Bu tövsiyələrdə ərzaqların beynəlxalq səviyyədə koordinasiyası zamanı onların ehtiyatlarının yaradılması, inkişaf etməkdə olan ölkələrdə ərzaq saxlanması yerlərinin tikilməsi və istehsalın artırılmasına yardım etmək məqsədilə iqtisadi kömək edilməsi, ərzaq məhsullarının ticarəti və istehsalı məsələləri üzrə qlobal məlumatlar sisteminin yaradılması, ümumdünya ərzaq təhlükəsizliyi məsələləri üzrə müntəzəm hökumətlərarası konsultasiyaların keçirilməsi nəzərdə tutulurdu (5, 11-12).

Lakin dünya ərzaq təminatları tam olaraq yaradıla bilmədi. Səbəb isə dünya ölkələrinin öz milli ərzaq təhlükəsizliyinə və milli maraqlarına daha çox üstünlük verməsi idi.

Bəs, dünya ərzaq təhlükəsizliyinin əsl məqsədi və meyarı nədir?

Aclıq və yemək azlığı dünyanın və bəşəriyyətin mövcudluğunun stabilliyinə yönəlmiş hərbi və iqtisadi təhlükələrlə eyni sırada dayanır. Aclıq çəkən insanlara gün ərzində 1520 kkal qəbul edənlər aid edilir. Mövcudluq və yüngül fiziki əmək üçün ilkin ərzaq tələbatı isə günə 2150 kkal-dır (2). FAO dünyada aclıq çəkən insanların sayını 800 milyon, ilkin tələbatlarını ödəyə bilən və aclıq və yemək azlığından əziyyət çəkmə ehtimalı olanların sayını 1 milyarddan çox müəyyən etmişdir.

Ərzaq vasitəsilə humanitar yardım, eləcə də ərzaq və beynəlxalq ticarət hazırda mövcud olan dünya iqtisadi qaydası əsasında dünya ərzaq təhlükəsizliyini təmin etmək iqtidarında deyil. Lakin ayrı-ayrı ölkələrdə, xüsusən də inkişaf etmiş ölkələrdə onun təhlükəsizliyinə riayət edilir.

Dünya ərzaq təhlükəsizliyi hər bir ölkənin öz milli ərzaq təhlükəsizliyini təmin etmə imkanlarının məcmusundan yaranır. “Milli ərzaq təhlükəsizliyi”nə verilən dəyər öz spesifikliyi ilə seçilir. Bu spesifiklik öz növbəsində kənd təsərrüfatı istehsalının təbiət iqlim şərtlərinin obyektiv müxtəlifliyindən, iqtisadi inkişafın qeyri-bərabərliyindən, tətbiq strukturundakı fərqlərdən, milli rejimi, daxili iqtisadi əlaqələri istiqamətləndirmə özəlliklərindən asılıdır.

**Milli ərzaq təhlükəsizliyi**

Dövlətin ərzaq təhlükəsizliyini onun iqtisadi və milli təhlükəsizliyini yaradan iqtisadi sisteminin əsas keyfiyyət göstəricisi kimi nəzərdən keçirmək lazımdır. Bütün tarix boyunca, əhalinin ərzaq təhlükəsizliyinin stabilliyinin təmin olunması ən mühüm dövlət problemlərindən biri olmuşdur. Çünki milli təhlükəsizlik birbaşa olaraq ondan asılı idi.

Milli ərzaq təhlükəsizliyi hər şeydən əvvəl, milli dövlət təhlükəsizliyinin əsas tərkib elementidir və bu xüsusda, mövcud sistemin iqtisadi dayanıqlılığı və siyasi müstəqilliyini, milli dövlət maraqlarına zərər vurmadan vətəndaşlarının birinci dərəcəli, elementar tələblərini qarşılama imkanını xarakterizə edir. Qeyd edilən halda ərzaq təhlükəsizliyinin anlayışının 2 aspekti nəzərdən keçirilməlidir.

Birinci – sosial-iqtisadi aspekt – dövlətin qəbul olunmuş norma və standartlarına uyğun olaraq öz vətəndaşlarını əsas yeyinti məhsulları ilə təmin etmək imkanını xarakterizə edir. Bu aspekt Ümumdünya ərzaq təhlükəsizliyi haqqında Roma bəyannaməsi ilə "bərabər qidalanma və yaşamaq hüququna müvafiq olaraq, hər bir kəs sağlamlıq üçün təhlükə yaratmayan qida məhsullarını əldə etmək imkanı"nın mövcudluğunu isbat edir (10, 3).

İkinci – siyasi-iqtisadi aspekt – dövlətin əhalisinin öz istehsalı hesabına ərzaqla təchiz olunması və bununla da daxili iqtisadi müstəqilliyinə və siyasi suverenliyinə zəmanət verməsi istiqamətində daxili resurslarını və aqroiqtisadi potensialını səfərbər etmək imkanını xarakterizə edir.

Milli ərzaq təhlükəsizliyi dünya ərzaq təhlükəsizliyinin elementidir. Roma bəyannaməsində aqrar istehsalın tənzim edilməsi üzrə milli sistemin köməyi ilə beynəlxalq ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas istiqamətləri 2 mühüm tezislə ifadə olunmuşdur:

1) Yüksək və ya aşağı potensialı olan ərazilərdə ərzaq, kənd təsərrüfatı, meşə, balıqçılıq sahəsində təcrübəyə və dayanıqlı siyasətə riayət edilməsi; hər bir dövlətin resurslarının və milli aqro-iqtisadi potensialının ümumdünya ərzaq resurslarının artımına gətirib çıxaran səfərbərliyi və maksimal səviyyədə istifadəsi;
2) ərzaq, kənd təsərrüfatı və ümumi ticarət siyasətinin dünya ticarət bazarı sistemində ədalətli yolla ərzaq təhlükəsizliyinə gətirib çıxarmasına şəraitin yaradılması (10, 3).

Göstərilənlərə əsasən, milli ərzaq təhlükəsizliyi meyarının əsasını ilk növbədə, onun iqtisadi təhlükəsizliyinə istiqamətlənən əsas daxili və xarici təhlükələrin xüsusiyyətləri yaradır. Məsələn, «RF iqtisadi təhlükəsizliyinin dövlət strategiyası (Əsas müddəalar)» uyğun olaraq, qeyd olunan xarakterik təhlükəli meyarlara aid edilir (11):

- əhalinin yoxsulluq səviyyəsinin yüksəlməsi və əhali içərisində əmlak differensiasiyası;
- milli iqtisadiyyatın strukturunun deformasiyası, yanacaq-energetika sahəsinin gücləndirilməsi;
- milli əmtəələrin bir çoxunun daxili bazardan sıxışdırılması;
- mühüm sahələrdə istehsalın zəifləməsi;
- regionların sosial-iqtisadi qeyri-bərabərliyinin yüksəlməsi.

Sadalananların milli təhlükəsizliyə təhlükə yarada biləcəyi ehtimallarının reallığa uyğunluq meyarı üçün göstəricilər məcmusu ("həyəcan indikatorları") ərzaq bazarının vəziyyətinin faktiki göstəriciləri və ərzaq bazarlarının ölkələrarası müqayisəsinin nəticələrindən istifadə olunmuşdur.

İkincisi, aşağıda qeyd olunanlar daxil olmaqla, iqtisadiyyat sferasında mühüm milli maraqlar sistemi (yuxarıda adıçəkilən sənəddə göstərilir):

- ölkənin xalq təsərrüfatının xarici təsirlərə minimum məruz qalaraq, müstəqil şəkildə öz istehsalını genişləndirmə rejimində funksionallaşması;

- sosial-iqtisadi stabilliyi müəyyən edən əhalinin həyat səviyyəsinə nail olunması və onun qorunması;
- vahid iqtisadi məkanın qorunması;
- iqtisadi proseslərin ehtiyac duyulan dövlət tənzimlənməsi ilə təmin edilməsi və s.

Üçüncüsü, FAO-nun ərzaq təhlükəsizliyi meyarına ümümmetodoloji yanaşmaları, eyni zamanda milli istehsal (istehsalçılar) üçün maddi zərər və maddi zərər təhlükəsinin GATT/ÜTT sənədlərində əks olunan göstəriciləri. Milli istehsala dəyən mühüm zərərin obyektiv meyarları 1995-ci ildə qüvvəyə minən ÜTT-nin Müdafiə meyarları haqqında xüsusi Razılaşması ilə müəyyən edilmişdir. Bu meyarlar sırasında mövcuddur: xarici malların ölkəyə daxil olması həcmi və səviyyəsi, onların milli bazarda payı, satış səviyyəsi və milli malların istehsalı səviyyəsinin dəyişdirilməsi, istehsal obyektlərinin intensiv əməyi, məşğulluq dinamikası və s.

Ərzaq təhlükəsizliyinin miqdar meyarı iki qrup göstəricinin köməyi ilə müəyyən edilir:

1) müxtəlif gəlirləri olan əhali qrupları üçün differensasiya hesablamaları ilə əsas qida məhsullarının istifadə dinamikası və səviyyəsi;
2) ölkənin özünü ərzaqla təmin etmə səviyyəsi, o cümlədən, əsas qida məhsulları baxımından.

Hər iki qrupun tərkibində faktiki və normativ (meyarlar) göstəricilər fərqləndirilir. Sonuncular öz iqtisadi təbiətinə görə adıçəkilən göstəricilərdən minimal (maksimal) yol verilə bilən "hədlər" hesab olunur. Birinci qrup üçün bu cür normalar tibbi normalar, elmi əsaslandırılmış sosial normalar və s. ola bilər. Ölkənin özünü ərzaqla təmin etməsinin dəyərləndirilməsi zamanı dünya praktikasında ərzaq müstəqilliyi meyarı qismində, ölkəyə xaricdən gələn ərzaqlar üçün onların ölkədə ümumi istifadəsi üçün tələb olunan həcminin 30%lik həddi müəyyən olunur. Hesab edilir ki, göstərilən həddin aşılması digər ölkələrdən strateji asılılığa səbəb ola bilər.

Qeyd olunan göstəricilərdən əlavə, milli əmtəə istehsalçıları üçün iqtisadi-maliyyə qaydalarını, o cümlədən ərzaq idxalı ilə əlaqədar qaydaları xarakterizə edən faktiki və proqnoz göstəriciləri sistemindən istifadə etmək də məqsədəuyğundur (4, 57-59).

Ərzaq təhlükəsizliyi konsepsiyası milli səviyyədə özünü ərzaqla təmin etmək mənasını ifadə etmir. Konsepsiya belə bir fikri irəli sürür ki, ölkə öz ehtiyacları üçün kifayət qədər ərzaq istehsal etməlidir, lakin əgər fərqli səbəblərdən bunu edə bilmirsə, o zaman tələb olunan ərzaqları idxal etmək iqtidarında olmalıdır.

Milli ərzaq təhlükəsizliyi haqqında daha dolğun təsəvvür yaratmaq üçün nəinki inkişaf etmiş ölkələrin, eləcə də, keçid iqtisadiyyatı olan ölkələrin təcrübəsinə nəzər salmaq lazımdır.

Dünya ölkələrinin əksəriyyəti milli ərzaq təhlükəsizliyinin təmin olun-

ması istiqamətində normativ-hüquqi baza formalaşdırırlar. Artıq qeyd etdiyimiz kimi, ərzaq təhlükəsizliyinin milli səviyyəsi qida məhsullarının istehsal və istehlakının balanslaşdırılmasını tələb edir, buna baxmayaraq, milli hökumətlər səviyyəsində milli ərzaq təhlükəsizliyinin əsası kimi kənd təsərrüfatının inkişafı sahəsinə daha çox diqqət ayrılır.

Dünyanın müxtəlif ölkələri fonunda təbii ki, inkişaf etmiş ölkələrin təcrübəsi fərqləndirilir. Bu ilk növbədə ABŞ-dır. Ölkənin ərzaq kompleksi ən proteksionist müdafiəsi olanlara aid edilir. Bunun üçün şəxsi kənd təsərrüfatı və təbii resurslarının müdafiəsi hesabına ərzaq stabilliyinin təmin edilməsinə xidmət edən xüsusi normativ aktlar qəbul olunmuşdur.

Hələ 1933-cü ildə ABŞ-ın aqrar siyasətinin əsasında paritet konsepsiyasının dayandığını müəyyən edən "Kənd təsərrüfatının tənzimlənməsi haqqında" Qanun qəbul edilmişdi və ABŞ aqrar siyasətini indiyə qədər bu konsepsiyaya istinad edərək yeridir. Real olaraq, paritetə görə, hər il kənd təsərrüfatının müvafiq ərzaq istehsalı fermerə müvafiq ölçüdə mal və xidmət əldə etmək imkanını təmin etməli, başqa sözlə desək, müvafiq real istehsal həcmi eyni real gəlir verməlidir (7, 248).

Paritetə kənd təsərrüfatı məhsulları üçün müəyyən olunmuş dəyər siyasəti hesabına nail olunur. ABŞ-ın kənd təsərrüfatında dövlət dəstəyi dəyərlərinin 2 növü mövcuddur: məqsədli (zəmanətli) və girov. Məqsədli – kənd təsərrüfatı məhsullarının daha önəmli növləri üçün tətbiq olunur. Onlar xərclərin əvəzinin ödənilməsi (onun tərkibinə fermer kapitalının orta gəlir norması torpaq rentası üçün haqq daxildir) və müvafiq gəlir üçün nəzərdə tutulurlar. Ümumilikdə, məqsədli dəyərlərin səviyyəsi elə hesablanıb ki, onlar orta və aşağı səviyyəli xərcləri olan fermalarda artırılmış istehsalın özünü maliyyələşdirməsi üçün lazım olan gəlir səviyyəsinə zəmanət versin (14).

Girov dəyərinə uyğun olaraq, fermer bütün məhsulu bazar qiymətlərinin girov dəyərindən aşağı olduğu hal üçün Ticarət-kredit korporasiyasına girov qoyur. 1985-ci il tarixli Kənd təsərrüfatı qanunları paketinin müddəalarına uyğun olaraq, ABŞ fermerlərinə öz məhsullarını azad bazarda satmaq, bazar qiymətlərinin qalxmasını gözləyərək saxlanılmaya vermək, Ticarət-kredit korporasiyasına girov qoymaq hüququ vardır (6, 88).

Ərzaq təhlükəsizliyi haqqında 1985-ci il Qanununun strukturu faktiki olaraq, 1980 və 1990-cı illərin 5 illik qanunlarının strukturunu təkrarlayır. Qanun konkretdir və 4 hissədən ibarətdir:

1. Mühüm məhsul qruplarının dəstəklənməsi. Onlara aiddir: arpa, buğda, süd və süd məhsulları, düyü, yer fındığı, qənd.
2. Strukturlu siyasətin həyata keçirilməsi. Daha dəqiq desək, bu siyasətin istiqamətlərinə aid edilir: kənd təsərrüfatı fəaliyyətinin sığortalanması, kənd təsərrüfatının inkişafı üzrə çoxsaylı dövlət proqramlarının mənimsənilməsi, təcrübə stansiyaları və kənd təsərrüfatı məktəblərinin yaradılması, sertifikatlaşdırılmış tədbirlərin maliyyələşdirilməsi, fer-

merlərin məhsul saxlama məkanlarının təkmilləşdirilməsi, milli sistemin beynəlxalq şəbəkəyə daxil etməklə kənd təsərrüfatı informasiyası ilə təmin edilməsi və digərləri.
3. Sahənin maliyyə cəhətdən sağlamlaşdırılması. Misal üçün, gəlirlərinin səviyyəsini saxlamaq üçün fermerlərə birdəfəlik yardımların edilməsi, kredit və güzəştli faizlərin ayrılması, maye yanacaqla təmin etməyə zəmanət, gəliri az olan maliyyə korporasiyalarının inkişafını dəstəkləmə, ərzaq talonlarının (kuponlarının) verilməsi, xüsusi kreditlərlə (fermerlər üçün) ödəmələrin köçürülməsi və digər tədbirləri göstərmək olar.
4. Kənd təsərrüfatı sahəsində ixracın açıq siyasi məqsədlər güdən ərzaq yardımı proqramının tərkib hissəsi kimi subsidiyalaşdırılması.

Bütün parametrlərinə görə, bu Qanun ərzaq kompleksinin yalnız ABŞ iqtisadiyyatı və müdafiəsi üçün deyil, eləcə də, liderlik edən beynəlxalq mövqelərə nail olmaq üçün vacib siyasi sənəd hesab olunur.

Qeyd etmək lazımdır ki, Avropa İttifaqı ölkələrinin təcrübəsi amerikan təcrübəsindən bir qədər fərqlidir. Avropanın birləşməsinə baxmayaraq, kənd təsərrüfatına münasibətdə hər bir ölkənin öz qanun və qaydaları qüvvədə qalır. Lakin Avropa İttifaqının inkişaf planına müvafiq olaraq bu normalar da unifikasiya edilir.

Almaniya Aİ-nin ən çox inkişaf edən ölkələrindən biri hesab olunur. Almaniyada hələ 1955-ci ildə "Almaniyanın kənd təsərrüfatı haqqında" Qanunu qəbul olunmuşdu. Qanunda birbaşa olaraq göstərilir ki, dövlət əhalinin ərzaqla strateji baxımdan təmin olunması problemini nəzarətdə saxlamalı, ərzaq fondları formalaşdırmalı, iqtisadi stimullaşdırmanın bütün meyarlar kompleksindən istifadə etməməli, ərzaq təminatı məsələsini üçüncü dövlətlərdən asılı hala gətirməməlidir. Bundan əlavə, 1979-cu ildə "Ərzaq təminatı haqqında" növbəti qanun qəbul edilmişdir. Sonuncu qanunda dövlətin ərzaq təminat sisteminə münasibətdə vəzifələri daha ciddi formada ifadə olunmuşdur. Almaniyanın ayrı-ayrı torpaqlarında kənd təsərrüfatı və ərzaq təminatı münasibətləri özlərinin qəbul etdiyi xüsusi normativ sənədlərlə nizamlanır.

Avropa İttifaqının digər inkişaf etmiş ölkəsi olan Fransada "Kənd təsərrüfatı istehsalının stabilliyinin təmin edilməsi haqqında" Qanuna uyğun olaraq, kənd təsərrüfatı nazirliyinə milli aqrar siyasətin hazırlanması və onun həyata keçirilməsi tapşırılmışdır. Bundan əlavə, 1960-cı ildə "Kənd təsərrüfatının dəstəklənməsi haqqında" Qanun, 1964-cü ildə "Kənd təsərrüfatı strukturu haqqında" Qanun qəbul olunmuşdu.

Çinin bu sahədə təcrübəsi olduqca maraqlıdır. 70-ci illərin sonunda 30 il ərzində təsərrüfatın sosial prinsipləri üzərində ölkənin iqtisadi modernləşdirilməsinə nail olmağa çalışan Çin dərin böhran vəziyyətinə düşdü. Bir çox əyalətlərdə xroniki aclıq hökmran olmuş, qida qəbulu səviyyəsi kritik səviyyədən aşağı düşmüşdü. Söhbət çoxsaylı əhalinin sağ qalmağından gedirdi.

Çin islahatlarının addımbaaddım həyata keçirilməsinə baxmayaraq, dəyişikliklər məhz kənd təsərrüfatından başladı. 1978-ci ilin sonundan etibarən aqrar sektora kapital qoyuluşunun artırılması cəhdləri edilməyə başladı. Lakin onlar yalnız daha məhsuldar torpaqları və əlverişli təbii resursları olan azsaylı kənd rayonlarına çatırdı. Ölkədə olan çoxsaylı yoxsul regionlar və təsərrüfatlar dövlətin köməyinə arxalana bilmir və yalnız öz güclərinə dayanırdılar. Yoxsul ərazilərdə yaşamağa çalışan ailələr kommunalarda deyil, əvvəlki ənənəvi qaydada – öz ailəsinin gücünə sadə təsərrüfat yaratmağa çalışırdılar. Bu, "ailə podratı" adlanırdı. Beləliklə, Çində xüsusi sektor dövlətlə əlaqə yarada biləcək normativ aktlarsız inkişaf edirdi. Odur ki, Çində islahatların başlanğıcı əhalinin "aşağıdan" fəaliyyətə başlaması ilə başlamışdır. Bu Çin islahatlarını digər ölkələrin islahatlarından fərqləndirən əsas spesifik cəhəti hesab olunur. Çünki həmin ölkələrdə bir qayda olaraq, islahat "yuxarıdan aşağı" və çox zaman əhali tərəfindən dəstək verilmədən həyata keçirilirdi.

1980-ci ildə "Kollektiv mülkiyyət çərçivəsində kənd təsərrüfatında məsuliyyət sisteminin möhkəmləndirilməsi" haqqında sənəd qəbul olundu. Bu sənədlə əhalinin torpaq əraziləri əldə etmək və ondan istifadə etmək, istehsal etdiyi məhsulları bazarda satmaq hüquqlarından istifadə edə bilərdi.

İnkişaf etmiş və keçid iqtisadiyyatlı ölkələrin təcrübələrinin tədqiqi zamanı aşağıdakı nəticələri əldə etmiş oluruq:

1. Müasir dövrdə ərzaq təhlükəsizliyi məsələləri dünyanın müxtəlif ölkələrinin təcrübəsində mövcuddur.
2. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövlətin kənd təsərrüfatına münasibətdə yeritdiyi siyasəti əsas etibarilə proteksionist xarakter daşıyır.
3. Kənd təsərrüfatı istehsalının tənzimlənməsi istehsalçıların dəyər mexanizmi ilə həvəsləndirilməsi hesabına həyata keçirilir.
4. Hər bir dövlətin ərzaq sahəsində qanunvericilik bazasını yaradan qanunları və digər normativ sənədləri daha öncədən yaradılmış qanunvericilik aktlarının bünövrəsi üzərində qurulur və öz milli adətlərinə əsaslanır.
5. Keçid iqtisadiyyatlı ölkələrdə iki növ kənd təsərrüfatı dəyişdirilməsinə təsadüf edilir: "şok terapiyası" prinsipi və addımbaaddım dəyişdirilmə prinsipi.

Bütövlükdə, ərzaq təhlükəsizliyi problemi kompleks xarakter daşımaqla, ərzaq istehsalı, qida məhsullarının istehlakı, idxal imkanları və dövlətin ərzaq siyasəti kimi məsələləri özündə əks etdirir. Müasir şəraitdə ərzaq təhlükəsizliyi nəinki kənd təsərrüfatının yüksək göstəricilərini, həm də rasional istehlak strukturunu, lazımi miqdarda valyuta ehtiyatlarının və ərzaq təhlükəsizliyinə digər təsir vasitələrinin mövcudluğunu nəzərdə tutan sabit iqtisadi vəziyyəti ifadə edir. Ərzaq təhlükəsizliyi ölkənin bütövlükdə kənd təsərrüfatının və iqtisadiyyatının elə bir vəziyyətini ifadə edir ki, burada əhalinin

ərzaq tələbatı kəmiyyət və keyfiyyət etibarilə tam həcmdə təmin olunur.

Beləliklə, qeyd etmək lazımdır ki, universal səviyyədə ərzaq təhlükəsizliyinin təmin olunması probleminin həllinə dünya ictimaiyyəti məhz BMT sistemi çərçivəsində nail olmağa çalışır. Bu mənada BMT sisteminə daxil olan Ərzaq və Kənd Təsərrüfatı və Ümumdünya Səhiyyə Təşkilatının rolunun danılmazdır. Göstərilən sahədə qarşıda duran vəzifələrin yerinə yetirilməsinin başlıca şərtləri, bir tərəfdən, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının artırılması, digər tərəfdən isə yeni iş yerlərinin yaradılması, əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan qruplarının gəlirlərinin, minimum pensiya və əmək haqlarının artırılması və ehtiyac meyarının səviyyəsinin yaşayış minimumuna çatdırılmasından ibarətdir.

Hazırda dünya ictimaiyyəti ərzaq təhlükəsizliyinin təmin olunması probleminin həllinə beynəlxalq səviyyədə nail olmağa çalışır. Milli səviyyədə ərzaq təhlükəsizliyinin təmin olunması isə yalnız effektiv dövlətdaxili qanunvericilik bazasının mövcudluğu şəraitində mümkün ola bilər.

## ƏDƏBİYYAT


1. Балабанов В.С. Борисенко Е.Н. Продовольственная безопасность: международные и внутренние аспекты. М.: Экономика, 2002, 552 с.
2. Бурдуков П.Т., Саетгалиев Р.З. Россия в системе глобальной продовольственной безопасности. http://www.duel.ru/publish/burdakov/glob.html
3. Графкина М.В., Михайлов В.А., Нюнин Б.Н. Безопасность жизнедеятельности. Учебник. М.: Проспект, 2008, 608 с.
4. Гумеров Р.Р. Как обеспечить продовольственную безопасность страны? // Российский экономический журнал, 1997, №9, с. 57-69.
5. Крузе Х. Создание эффективных систем продовольственной безопасности в условиях глобализации // Аграрное и земельное право, 2009, №2, с. 9-16.
6. Кучуков Р., Савка А. Механизм регулирования цен в аграрном секторе развитых стран // Экономист, 1999, №6, с. 87-90.
7. Макконнел К., Брю С. Экономикс: принципы, проблемы и политика. В 2-х томах. Т. II. М.: Туран, 1996, 400 с.
8. Общая теория национальной безопасности: Учебник // Под общ. ред. А.Прохожева. М.: РАГС, 2002, 320 с.
9. Право на питание. 56-я сессия Генеральной Ассамблеи. ООН, 2001.
10. Римская декларация по Всемирной продовольственной безопасности // АПК: экономика и управление, 1997, №2, с. 3-7.
11. Российская газета, 1996, 14 май.
12. Файзуллин Г.Г. Роль государства в обеспечении продовольственной безопасности: международно-правовой аспект // Право и государство, 2008, №8, с. 72-76.
13. Food Safety Strategic Planning Meeting. Report of a WHO Strategic Planning Meeting, 20-22 February 2001. World Health Organization (WHO). Geneva, Switzerland, 2001, 32 p.
14. Foreign Agricultural Trade of USA // FAO review 1970-1980 years.
15. http://www.fao.org
16. http://www.usda.gov

## УРОВНИ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ И ПУТИ ИХ ОБЕСПЕЧЕНИЯ

**А.А.МАГЕРРАМОВ, Н.И.РАГИМОВ**

**РЕЗЮМЕ**

В статье проблема продовольственной безопасности на международном и национальном уровнях, а также пути и направления их решения анализируются на основе действующих международно-правовых документов и законодательной практики различных государств. Отмечается, что мировое сообщество пытается разрешить проблему обеспечения продовольственной безопасности в универсальном уровне. А обеспечение продовольственной безопасности на национальном уровне возможно лишь в условии существования эффективного внутригосударственного законодательства.

**Ключевые слова:** продовольственная безопасность, международные стандарты, внутригосударственное законодательство, голодание, продовольственные продукты, система ООН, Продовольственная и сельскохозяйственная организация, продовольственные запасы, государственное регулирование

## LEVELS OF FOOD SAFETY AND WAYS OF ITS MAINTENANCE

**A.A.MAHARRAMOV, N.I.RAHIMOV**

**SUMMARY**

The article analyzes the problem of food safety at international and national levels, and studies ways and directions of their solution on the basis of effective international legal documents and legislative practice of various states. It is noticed, that the world community tries to resolve the problem of maintenance of food safety at universal level. Maintenance of food safety at national level is only possible under the availability of effective internal legislation.

**Key words:** food safety, international standards, internal legislation, hunger, foodstuff, UN system, Food and Agricultural Organization, food stocks, state regulation